*UOT 371*

***Gülsabah Natiq qızı Əmirova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*ORCİD: 0000-0003-0256-3934*
https://doi.org/10.69682/azrt.2024.91(1).84-90

# TƏLƏBƏLƏRDƏ REGİONŞÜNASLIQ İXTİSASI ÜZRƏ SƏRİŞTƏLƏRİN FORMALAŞDIRILMASI

***Гюльсабах Натик гызы Амирова***
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# ФОРМИРОВАНИЕ КОМПЕТЕНЦИЙ У СТУДЕНТОВ ПО СПЕЦИАЛЬНОСТИ РЕГИОНОВЕДЕНИЕ

***Gulsabah Natig Amirova***
*doctorial student in the program of doctor of philosophy*
*İnstitute of Education of the Republic of Azerbaijan*

# FORMATİON OF STUDENTS' COMPETENCİES İN THE FİELD OF REGİONAL STUDİES

**Xülasə.** Peşəkar biliklərə malik regionşünas-mütəxəssislərə tələbat aktual məsələlərdən biridir. Regionşünaslıq ixtisası üzrə məzunlarda uğurlu iş həyatı üçün ümummədəni və peşəkar səriştələrin formalaşması tədris prosesinin əsas istiqamətlərindən hesab olunur. Fərqli tədris texnikalarının tətbiqi tədris prosesinin qoyduğu məqsəd və vəzifələrə daha effektiv nail olmağa, zəruri səriştələrin formalaşmasına təkan verir.
***Açar sözlər***: *regionşünaslıq ixtisası, peşəkar səriştələr, kadr hazırlığı, səriştəlilik nəzəriyyəsi, tədris texnologiyaları*

**Резюме.** Подготовка специалистов-регионоведов, обладающих профессиональными знаниями, является одним из актуальных вопросов. Формирование у выпускников по специальности регионоведение общекультурных и профессиональных компетенций для успешной трудовой жизни считается одним из основных направлений образовательного процесса. Применение различных методик обучения способствует более эффективному достижению целей и задач, формированию необходимых компетенций.
***Ключевые слова:*** *специальность регионоведение, профессиональные компетенции, подготовка кадров, теория компетентности, технологии обучения*

**Summary.** The training of specialists in regional studies with professional knowledge is one of the urgent issues. The formation of general cultural and professional competencies for successful working life among graduates of the specialty of regional studies is considered one of the main directions of the educational process. The use of various teaching methods contributes to a more effective achievement of goals and objectives, the formation of necessary competencies.
***Keywords:*** *specialty regional studies, professional competencies, personnel training, theory of competence, learning technologies*

Regionların dünyanın və regional siyasətin müstəqil subyektləri kimi beynəlxalq səhnəyə çıxmaları “Regionşünaslıq” ixtisasını müasir sistemin ehtiyac duyduğu sahələrdən birinə çevirmişdir. Ölkəmizin geniş dünyagörüşünə, qloballaşma, lokallaşma, regionlaşma kontekstində peşəkar biliklərə malik regionşünas-mütəxəssislərə tələbatı təbiidir. Müxtəlif regionların daxili və xarici siyasəti, diplomatiyası, iqtisadiyyatı, mədəniyyəti kimi mühüm fənlərin tədrisini özündə birləşdirən, xarici dil biliyinin zəruri olduğu “regionşünaslıq” sahəsinin məzunları həm

daxili bazarın, həm də Azərbaycanın lider rolu oynadığı Qafqaz regionunun tələblərini ödəyəcək dərəcədə hazırlıqlı olmalıdır.

Tədris proqramının məqsədinin sosial-şəxsi keyfiyyətlərin formalaşmasına yönəldilməsi mütləqdir və bu mənada mənəvi keyfiyyətlər, sosial adaptasiya, ümummədəni vərdişlər, şəxsiyyətin yaradıcılıq potensialının reallaşdırılması, məqsədyönlülük, əməksevərlik, məsuliyyət, vətəndaş mövqeyi, ünsiyyətcillik, tolerantlıq, sosial mahiyyətin və peşəkar fəaliyyətin sosial nəticələrinin dərk edilməsi məsələlərinə diqqət yetirilməlidir. Regionşünas–tələbələr bir sıra ixtisas problemlərinin həlli yollarına malik olmalıdırlar. Bu nöqteyi-nəzərdən zəruri hesab etdiyimiz bacarıqları qeyd edək:

• konkret regionda beynəlxalq əməkdaşlığın bütün səviyyələri üzrə baş verən proseslər barədə biliklərə sahib olmaq;

• konkret regionda regional inteqrasiya prosesləri barədə məlumatları bilmək;

• konkret region ölkələrində daxili- siyasi proseslər barədə biliklərlə silahlanmaq;

• konkret regionda beynəlxalq əməkdaşlığın bütün səviyyələri üzrə baş verən proseslər barədə məlumatlı olmaq;

• diplomatik sənədlər, layihələr, müqavilə və sazişlər, tədbirlərin proqramlarını hazırlamaq bacarığı;

• auditoriya, o cümlədən xarici auditoriya ilə iş vərdişlərinə malik olmaq;

• diplomatik dünya üzrə iqtisadi, ekoloji, demoqrafik, miqrasiya proseslərini anlamaq, planetar mühitə, həmçinin dünya iqtisadiyyatı və siyasətinə qarşılıqlı təsirə malik mexanizmləri bilmək;

• aparıcı dünya dövlətlərinin xarici siyasətinin əsas istiqamətlərini, diplomatiyasının xüsusiyyətlərini və Azərbaycan Respublikası ilə əlaqələrini bilmək;

• çoxtərəfli və inteqrasiya diplomatiyasının mexanizmləri üzərindən hərəkət etməyi bacarmaq.

Məzunlarda uğurlu iş həyatı, müstəqil təşkilati-idarə və elmi-tədqiqat fəaliyyəti üçün ümummədəni və peşəkar səriştələr müəyyən dərəcədə formalaşmış olmalıdır. “Regionşünaslıq” ixtisası üzrə məzun olan bakalavr və magistrlər əmək bazarına çıxış zamanı bir sıra vacib peşə keyfiyyətlərinə və biliklərə sahib olmalıdırlar. Bunlar arasında məzunlar:

– dünya regionlarının tədqiqində fənlərarası yanaşmanın əsas prinsiplərini nəzərə almalı;

– informasiyanın (o cümlədən müasir informasiya texnologiyalarından istifadə etməklə) qəbul edilməsi, saxlanması və emalı metodlarına hakim olmalı;

– ölkələrin xarici siyasətinin formalaşmasına təsir edən daxili və xarici amilləri təhlil etməyi bacarmalı, onların xarici siyasi kursunda əsas meylləri və qanunauyğunluqlarının evolyusiyası məsələlərini qiymətləndirməyi bacarmalıdırlar;

– konkret ölkənin (o cümlədən Azərbaycanın) yerləşdiyi regionda baş verən prosesləri, ölkələrin müasir dünya səhnəsində rolu və yerinin müəyyənləşdirilməsini təhlil etməyi bacarmalıdır;

– xarici dil (yazılı və şifahi) biliklərinə malik olmalı, xarici dil biliyindən peşəkar məsələlərin həllində istifadə etməyi bacarmalıdır;

– iqtisadi, siyasi, sosial, mədəni və digər regional prosesləri analiz etməyi bacarmalıdır;

– iş təklif edənlər və onların tərəfdaşlarının tələblərinə uyğun olan peşəkar səriştələrə malik olmalıdırlar.

Bunlarla yanaşı, əmək bazarı ilə münasibətə başlayan mütəxəssisdə uğurlu iş həyatı, müstəqil təşkilati-idarə və elmi-tədqiqat fəaliyyəti üçün ümummədəni səriştələr də müəyyən dərəcədə formalaşmış olmalıdır.

C. Qilford, S.Torp, V.Simonov kimi tədqiqatçıların əsərlərində səriştələrin müxtəlif növlərinin qiymətləndirilməsi məsələləri tədqiq olunur [6; 5; 7; 18], ümumtəhsil və peşəkar ali təhsil səviyyəsində yanaşmalardan bəhs edilir. Bəzi tədqiqatçılar tərəfindən səriştələrin mənimsənilməsi səviyyəsi nəzərə alınmaqla qiymətləndirilmənin innovasiya metodu təklif edilsə də, sözügedən metod təcrübi əhəmiyyətə malik deyil (9**, s.** 63-66).

Tədris prosesində təhsilalanlarda səriştələrin formalaşdırılması imkanlarının əsas komponentlərindən olan tədris prosesinə nəzarətə (özünənəzarətə) xüsusi məsuliyyətlə yanaşmaq lazımdır. Tədris prosesini formal deyil real idarə etmək üçün düzgün, elmi cəhətdən əsaslandırılmış qərarlar qəbul edilməli, müəllim prosesin müxtəlif yönləri ilə bağlı faktiki məlumatlara malik olmalıdır. Tədris prosesinin gedişatında mərhələvi nəticələr, mütəmadi şəkildə geriyə əla-

qə olmadan prosesin idarə olunması mümkün deyil. Zəruri informasiyanın olmaması dərs prosesini iflic vəziyyətinə sala bilər, bununla belə ikincidərəcəli, kiçik həcmli informasiyaların çoxluğu da düzgün qərarlar qəbul edilməsinə mane ola bilər. Müəllimin tədris prosesinin idarəedicisi olaraq vəzifəsi daxil olan informasiyanın qaydaya salınaraq emal edilməsindən, təhlil və dəyərləndirmə aparılmasından ibarətdir (18, s.192).

"Regionşünaslıq" ixtisası üzrə tələbələrin hazırlığı təcrübəsi göstərir ki, gələcək mütəxəssislərin peşəkar fərdiləşməsinə təsir göstərən əsas amillərə diqqət yetirmək zəruridir. Gələcək mütəxəssislər nəinki danışıqlar aparmaq qabiliyyətinə malik olmalıdırlar, eyni zamanda tələb olunarsa tərcüməçi, referent funksiyasını yerinə yetirməlidirlər. Buna görə də peşəkar hazırlıq prosesində regionşünaslarda tərcüməçi səriştəsinin formalaşdırılmasına xüsusi diqqət göstərilir. Beynəlxalq kommunikasiya təbii olaraq mədəniyyətlərarası kommunikasiya tələbini irəli sürür. Həmin səbəbdən məzun dilin mənsub olduğu ölkənin linqvo-mədəni xüsusiyyətlərinə bələd olmalı, mədəniyyətlərarası kommunikasiya baryerlərini aşmağı, mədəniyyətlərarası münaqişələrdən qaçmağı bacarmalıdır. Gələcək regionşünasların mühüm keyfiyyətləri sırasına mükəmməl psixoloji hazırlıq imkanlarını da daxil etmək olar. Psixologiyanın əsasları fənninin tədrisi diqqət, uzaqgörənlik, stresə davamlılıq, həmsöhbətinin psixoloji portretinin təsəvvür edilməsi və digər zəruri bacarıqların formalaşmasını təmin edir.

Xarici ölkələrdə işləyəcək gələcək regionşünasların hazırlığında diqqət yalnız həmin ölkələrin siyasi və iqtisadi amillərinin öyrənilməsinə deyil, həm də mədəniyyətlərarası səriştələrin formalaşdırılmasına yönəldilməlidir. Xüsusilə, həmsöhbətini dinləyərək ümumi vəziyyəti nəzarətdə saxlamaq, işgüzar ünsiyyət metodlarından və olduğu ölkənin yerli işgüzar mədəniyyətinin xüsusiyyətlərindən istifadə etməyi bacarmaq uğurlu nəticələr əldə edilməsi baxımından əhəmiyyətlidir. Bu mənada digər mədəniyyət daşıyıcılarının rəylərini, baxışlarını anlamaq, öz davranışlarına nəzarət etmək, kommunikasiya prosesində münaqişələri aşmaq, müxtəlif dəyərlərin, davranış normalarının mövcudluğunu qəbul etmək kimi funksional səriştələr formalaşdırılmalıdır. Gələcəkdə xarici ölkədə uzunmüddətli işləyəcək, adaptasiya prosesinə məruz qalaraq yabançı mədəniyyətin təsirini hiss edəcək mütəxəssisin-regionşünasın peşəkar hazırlığı akkulturasiya məsələlərini (mədəniyyətlərin qarşılıqlı təsiri prosesi) də aktuallaşdırır [18]. Belə ki, müəyyən peşə öhdəliklərini yerinə yetirən mütəxəssis mədəniyyətlərin təsiri prosesinin nəticəsi olaraq yeni elementləri mənimsəyə bilər, onun mədəniyyət anlayışında ciddi dəyişikliklər yaranaraq yeni mədəni sintez təzahür edə bilər. Nəzərə almaq lazımdır ki, müxtəlif mədəniyyət nümayəndələrinin qarşılıqlı fəaliyyəti prosesində partnyorların fərqliliyi ünsiyyətin nəticəsinə ciddi təsir göstərə bilər [13, s.22-23].

Tədris prosesində tələbələrə aşılanacaq səriştələr arasında peşəkar fərdiləşməyə hazırlıq gələcək mütəxəssislər üçün son dərəcə əhəmiyyətli imkanlardan hesab olunur. Peşəkar sosiallaşma və fərdiləşmə peşəkar təhsillə əlaqəli olduğu kimi peşəkar fəaliyyətlə də bağlıdır. Peşəkar fəaliyyət nəticəsində insan püxtələşir, bilik, bacarıq və vərdişlərini, təcrübəsini reallaşdırır, peşəkar ustalığını həyata keçirir [17, s.447]. Peşəkar fəaliyyətə hazırlıq və fəaliyyət dövrü şəxsiyyətin fərdi keyfiyyətlərində ciddi dəyişikliklərə səbəb olaraq mütəxəssis kimi formalaşmasına təsir göstərir.

Müasir regionşünas məzunların hazırlığına tələblərin genişlənməsini nəzərə almaqla qeyd etməliyik ki, onların şəxsi və işgüzar keyfiyyətlərinə olan ənənəvi tələblər dəyişmir, sadəcə səriştəlilik yanaşması əsasında (biliklər, təcrübi fəaliyyətdə bacarıq və vərdişlər) daha da genişlənir. Hazırda beynəlxalq profil üzrə müasir mütəxəssisin hazırlığını liderlik psixologiyası, konfliktologiya, peşəkar ünsiyyət etikası kimi bir sıra yeni istiqamətlər olmadan həyata keçirmək mümkün deyil. Tədris prosesində regionşünas-məzunların peşəkar tərbiyəsi və şəxsi keyfiyyətlərinin (səriştələrinin) formalaşmasında diplomatik fəaliyyət göstərmiş şəxslərin fəaliyyətinin emotiv qavranılmasına, tarixi və müasir nümunələrə vurğu etmək mühüm imkanlardan biri hesab olunmalıdır.

Beynəlxalq əlaqələr üzrə mütəxəssis beynəlxalq danışıqlarda iştirak etməyi (həmçinin xarici dillərdə), öz nöqteyi–nəzərini tutarlı faktlarla təsdiq etməyi, ortaq qərarlar qəbul etməyi, problemləri, məqsədləri müəyyən etməyi, alternativ variantları dəyərləndirməyi, optimal qərar-

lar qəbul etməyi, nəticələri qiymətləndirməyi, münaqişəli durumlarda davranış texnikasından istifadə etməyi bacarmalıdır. Sadalanan bu səriştələr "Beynəlxalq danışıqlar ustalığı", "Danışıqların aparılması", "Beynəlxalq danışıqların aparılması: treninq", "XXI əsrin danışıq kompleksləri" kimi kursların mənimsənilməsi prosesində həyata keçirilə bilər.

Regionşünaslıq ixtisası üzrə məzunlar region üzrə dilə (dillərə) sahib olmaqla yanaşı dünya (beynəlxalq) dilini – ingilis dilini də mükəmməl bilməlidirlər. Dil biliklərindən başqa bu sahə üzrə məzun region mədəniyyətinə, ictimai həyatına, demoqrafiyasına və konkret regionun bir çox xüsusiyyətlərinə bələd olmalıdır. Bunların mənimsənilməsi yalnız linqvistik deyil, bir sıra başqa humanitar fənlərin öyrənilməsini zəruri edir. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru, akademik A. Torkunov göstərir ki, regionşünaslığı, filologiya, diplomatik səriştələr və ünsiyyətcilliyi özündə əks etdirən dərs vəsaiti yoxdur, ona görə də beynəlxalq münasibətlər üzrə biliklərin effektiv mənimsənilməsi üçün fənlərarsı əlaqələrə vurğu etmək zəruridir [19, s. 9]. A. Torkunovun fikirləri beynəlxalq münasibətlər sahəsində müasir tədqiqatların əsasən fənlərarası xüsusiyyət daşıdığını, ənənəvi sahələrlə yanaşı ekoloji, sosioloji, kulturoloji və informativ-texniki sahələri də daxil etdiyini bildirən digər tədqiqatçı tərəfindən təsdiq olunur [10, s. 296-301].

Ali təhsilin informasiyalaşdırılması–vahid informasiya mühitinin yaradılması təhsilin, elmin, tərbiyəvi, təşkilati-idarə fəaliyyətinin müasir informasiya texnologiyaları əsasında həyata keçirilməsinə geniş imkanlar yaradır. Səriştələrin formalaşdırılması imkanlarından bəhs edərkən multimedia vasitələrindən istifadəni də qeyd etməliyik. Müəllim bu zaman xüsusilə seçimlərə diqqət yetirməli, auditoriya və ev tapşırıqları üçün nəzərdə tutulan əsaslı multimedia materiallarını ayırmağı bacaramalıdır [8, s.15]. Müasir şərtlərdə müəllim çoxsaylı multimedia vasitələrinin optimal toplusunu müəyyən edərək tələbələri peşəkar multmedia materialları ilə zəngin internet resurslara yönləndirməlidir.

Regionşünaslıq ixtisası üzrə təhsil alan tələbələrdə səriştələrin inkişaf etdirilməsi məqsədi ilə müxtəlif dil (yaxud dövlət) dekadalarının (həftələrinin) təyin edilməsi, bu istiqamətdə konsertlər, tamaşalar təşkil olunması tələbələrin mövzu ətrafında aktiv səfərbərliyinə, maksimum tələbə iştirakının təmin olunması mühümdür. Auditoriyadan kənar məşğələlərin seçkili elan edilməsi məqsədəuyğundur, lakin bu saatlar o qədər maraqlı təşkil olunmalıdır ki, hər kəs iştirak etmək istəsin. Maraq peşəkar istiqamətlə əlaqəli olmalı, gələcək fəaliyyət sahəsinə hədəflənməli, eyni zamanda tədbirin orijinallığına əsaslanmalıdır.

Ali məktəbdə hazırlıq dövründə lazımi səriştələrin formalaşması yollarından biri tədris prosesində innovasiya metodunun, forma və texnologiyalarının tətbiq edilməsidir. Səriştələrin formalaşdırılmasında müasir metodların tərkib hissələrindən biri aktiv və interaktiv tədrisin keys-metodları hesab olunur. Təhsilalanlar situasiyanı öyrənərək problemi araşdırmalı, problemin həlli yollarını təklif etməli və onlar arasından uyğun variantı seçməlidirlər. Keyslər seçilərkən mürəkkəb və həlli üçün müxtəlif yollar olan variantlara üstünlük verilməlidir. Məsələn, siyasi, ticarət, mədəni, sosial sahələrdə danışıqlar aparılması kimi tipik situasiyalar auditoriyanın obyektin həllində səfərbər olmasına daha geniş imkanlar yaradır. Bu cür tapşırıqların yerinə yetirilməsi prosesində tələbələr nəinki müxtəlif ölkələrə aid müvafiq leksikon, milli-mədəni xüsusiyyətlərlə tanış olacaqlar, həm də danışıq üslublarını (loyal və kateqoriyalı) öyrənəcəklər. Keyslərin yerinə yetirilməsi prosesində tələbələr adətən qruplara ayrılırlar, bu da yalnız arqumentlər tapmaq və qərarlar qəbul etmək bacarıqlarını inkişaf etdirmir, kollektivçiliyin yaranmasına, peşəkar mühitdə qarşılıqlı təhsilə imkan yaradır.

Keys-metodlarla yanaşı layihələr metodu, qarşılıqlı təhsil (kollektiv, qrup və cütlər olaraq), oyun metodlarından istifadə tələbələrdə yaradıcı və qavrayıcı qabiliyyətin mütəmadi aktivliyini stimullaşdıracaq, eyni zamanda təhsil prosesini pedaqoqun əsas rol oynamadığı, tədris prosesinin bərabərhüquqlu subyektinə çevrildiyi fəaliyyətə yönəldəcək. Burada tələbənin hazır bilik almaması, bilikləri aktiv və interaktiv müstəqil fəaliyyəti nəticəsində əldə etməsi vacibdir [12, s.108]. Tərbiyəvi situasiyaların həllinə yönəldilmiş interaktiv məşğələlər və ümumiyyətlə bir sıra məşğələ saatları bu məqsədə nail olmağa imkan verə bilər. İnteraktivlik problem və oyun

xüsusiyyəti daşıyan tapşırıqların çulğaşmasına şərait yaradır.

Tələbələrin tapşırıqları yerinə yetirmələri prosesində ünsiyyət səriştələri ilə yanaşı xarici dil səriştələri də formalaşmağa istiqamətlənəcək. Məsələn, "milli adətlər", "xaricdə bir ay" kimi mövzular həm problem, həm də oyun xarakterli olduqları üçün tələbələr məşğələlərin gedişatında müxtəlif mədəniyyət nümayəndələri ilə bağlı məlumatlar alacaq, xarici dildə müzakirələr aparacaq, səriştələr toplayacaqlar. Real iqtisadi və sosial situasiyalara əsaslanan keys-stadi səriştələrin formalaşdırılmasında yüksək effektlilik tədqiqatçılar tərəfindən təsdiqlənir [11, s. 29-32]. Treninq texnologiyaları, evristik, problem əsaslı təlim, qabaqcıl, distant və müxtəlifsəviyyəli tədris və s. də effektli hesab oluna bilər.

Tədrisin metod və texnologiyaları onun həyata keçiriləcəyi üsulları da aktual edir. Bunların xeyli hissəsi tədris planları vasitəsilə nizamlanır və müəllimlər tərəfindən mütləq şəkildə (mühazirələr, təcrübi məşğələlər, laborator işləri, tədris və istehsalat təcrübəsi və s.) həyata keçirilir. Lakin qeyd etməliyik ki, bunlarla yanaşı müəllimin yaradıcılığı – yeni iş üsulları axtarışı, ənənəvi olanlara düzəliş və əlavələr üçün də meydan hər zaman mövcuddur. Problem məsələlərlə bağlı seminarlar, məşğələlərlə paralel tələbələrin şəxsi mülahizələrinin müzakirəsinin də təşkil olunması, bu cür fikirlərin səsləndirilməsinə stimullaşdırma məqsədəuyğundur [12, s. 108].

Tədqiqatçı İ. Cəbrayılov da müasir ali məktəb təhsilində tədqiqat mədəniyyətinin formalaşmasını mühüm problemlərdən biri hesab edir. Müəllif göstərir ki, tələbələrdə tədqiqat mədəniyyətinin inkişaf etdirilməsi onları yüksəkixtisaslı kadrlar olaraq həyata hazırlayır. Ali təhsil müəssisələrində tədris prosesində və auditoriyadankənar vaxtlarda bu məsələnin həllinə ciddi əhəmiyyət verilməsi vacibdir. Müəllif vurğulayır ki, tədqiqatçılıq mədəniyyətinin formalaşdırılması elmi əsaslarla həyata keçirilməlidir. Bu baxımdan, ilk növbədə müəyyən prinsiplərə riayət olunmalı, iş məqsədəuyğun şəkildə reallaşdırılmalıdır [4, s.64].

Bir qrup rus psixoloq (T. Kudryavtsev, A. Matyuşkin, Z. Kalmıkova və d.) problem əsaslı öyrənmənin müxtəlif modifikasiyalarda psixoloji bazalarını işləyib hazırlamışlar. Nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, təhsilalanlara idraki tapşırıq verilir və onlar (müəllimin bilavasitə iştirakı, yaxud müstəqil) problemin həlli yollarını araşdırmağa başlayırlar. Bunun üçün fərziyyələr irəli sürülür, həmin fərziyyələrin doğruluğu, həqiqətə uyğun olub-olmaması müzakirə edilir, arqumentlər gətirilir, təcrübələr qoyulur, müşahidələr aparılır, nəticələr təhlil olunur, sübutlar irəli sürülür. Bu proses zamanı tələbələr qaydalar, formullar, nəzəriyyələr yarada bilərlər.

Qeyd etməliyik ki, problem situasiya yaradılarkən təhsilalanın cavabını bilmədiyi hər hansı problemdən istifadə doğru deyil. Qoyulan problem müəyyən şərtlərdə əqli aktivlik yaratmalıdır. Psixoloqlar təhsilalanların aktivlik mənbəyini ziddiyyətlərdə görürlər. Məhz təhsilalanın malik olduğu təcrübə ilə (bilik, bacarıq, vərdiş, səriştə və s.) həll etməli olacağı təhsil problemi arasındakı ziddiyyətdən söhbət gedir. Bu cür ziddiyyət təhsilalanın zehnini, düşüncələrini səfərbər edir, aktivliyi maksimum yüksəldir. "Düşüncədə və təhsildə problem situasiyalar" adlı kitabında tədqiqatçı A,M, Matyuşkin problem situasiya yaradılması üçün qaydalar müəyyən edir. Tədqiqatçının mövzuya münasibəti "təhsilalanlar qarşısında elə problem məsələlər (təcrübi və nəzəri) qoyulmalıdır ki, onların yerinə yetirilməsi yeni biliklərin kəşf edilməsi, yeni səriştələr qazanılmasına təhrik etsin" fikrinə tərəfdar olanlarla uzlaşır [16]. Problem əsaslı təhsilin universal təhsil metodu olmaması ilə razılaşsaq da ənənəvi təhsillə müqayisədə şübhəsiz, bir sıra üstünlükləri olduğunu görürük:

1. məntiqi, elmi, dialektik, yaradıcı düşünməni öyrədir;
2. tədris materialını daha əsaslı edir, bununla da biliklərin daha dərin mənimsənilməsinə səbəb olur;
3. bir qayda olaraq emosiyalarla müşayiət olunur, dərin intellektual hisslər oyadır, o cümlədən öz imkanlarına inam, sevinc hissləri yaranır. Bütün bunlar təhsilalanları cəlb edir, elmi biliklərə dərin maraq formalaşdırır.
4. sübut edir ki, müstəqil əldə edilən (kəşf olunan) həqiqətlər asanlıqla unudulmur, unudularsa onları tez bərpa etmək mümkündür.

Problem əsaslı təhsilin mənfi tərəflərindən bəhs etmək lazım gələrsə qeyd edə bilərik ki, bu növ öyrənmə təhsilalanlarda çətinliklər yaradır və problemin həlli yolları ənənəvi təhsil-

lə müqayisədə çox zaman alır. Bundan başqa, proqramlaşdırılmış tədrisdə olduğu kimi, problem əsaslı təhsildə də texnologiyanın hazırlanması müəllimdən böyük pedaqoji ustalıq və çox zaman sərfi tələb edir. Bəzi mənfi tərəflərinə baxmayaraq, problem əsaslı təhsil müasir təhsilin tələblərinə cavab verir: tədqiq edərək öyrədir və öyrədərək tədqiq edir.

Müasir təhsili, həmçinin regionşünaslıq ixtisası üzrə təhsil alanları kontekst təhsil olmadan, tələbələrin tədricən peşə kontekstinə nüfuz etmələri olmadan təsəvvür etmək mümkün deyil. Bu isə təcrübi tədqiqatlar, istehsal təcrübələri, mütəxəssis-təcrübə rəhbərləri ilə qarşılıqlı fəaliyyətdə olmadan mümkün deyil. Kontekst təhsilin tətbiqi nəticəsi olaraq tələbə gələcək peşə fəaliyyətinin reallıqlarına yaxınlaşmış olur, müəyyən dərəcədə bu sahənin bir hissəsinə çevrilir. Hətta adi məşğələlərdə də müxtəlif fənn müəllimləri səriştələrin formalaşdırılmasına yönəldilən tapşırıqlar seçməli, tələbələrin müxtəlif regionların dövlət və özəl strukturlarında iş reallıqlarına hazır olmalarına çalışmalıdırlar. Kontekst təhsil "sistemli fəaliyyət yanaşması"nın özəyinə çevrilməyə başlamışdır [11, s. 29].

Tədqiqatçı T. Mixaylenko "oyun texnologiyaları"nın tədris prosesinin təşkilində müxtəlif yol, metod və üsulları özündə birləşdirdiyini, pedaqoji oyunların əhəmiyyətini qeyd edir [15, s. 145]. Tələbələrdə xarici dil səriştələrinin inkişaf etdirilməsində oyun üsulunu mühüm yollardan hesab edən tədqiqatçı N. Babayeva göstərir ki, bu yolla utancaq və ünsiyyətdən qaçan tələbələri aktivliyə cəlb etmək asandır. Müəllifə görə oyunlarda və oyun situasiyalarında kommunikativ çalışmalardan istifadə nitq-təfəkkür tapşırıqlarının həllinə kömək edir [3, s.84.].

Tədqiqatçı Darfilal oyunların üstünlüklərindən bəhs edərək göstərir [1, s.14]:

– oyunlar motivasiya edir və əyləndirir;

– tələbələri dost mühitdə ünsiyyətə təşviq edir;

– tələbələrə biliklərini (həmçinin dili) real həyatda tətbiq etməyə imkan yaradır;

– tələbələrə ənənəvi məşğələdən fərqli bir məşğələ təklif edir;

– təhsilalanlara yeni təcrübə qazandırır, emosiyalar bəxş edir;

– həvəssiz, ünsiyyətcil olmayan tələbələr üçün komfortlu mühit yaradır;

– daha tez öyrənməyə və yadda saxlamağa yardım edir;

Oyun yolu ilə tədris, motivasiyanı yüksəltməklə idraki aktivliyi də qaldırır, bu da daha geniş həcmdə informasiya mənimsənilməsinə, müxtəlif situasiyalarla bağlı adekvat qərarlar qəbul etməyə, yeni səriştələr qazanmağa, mənəvi seçim təcrübəsinin formalaşmasına bilavasitə təsir göstərir. Tədris prosesində oyunlardan istifadə iştirakçıların ətraf mühitə münasibətini də dəyişir, qeyri-müəyyənlik qarşısında qorxunu aradan qaldırır. Prosesin gedişatında təhsilalan bir neçə mövqedən çıxış etməli olur, şəxsiyyət eyni zamanda iki planda –real və şərti zamanda özünü nümayiş etdirə bilir [2, s.19-20].

Obyektimiz olan ixtisas tarix, coğrafiya, dil, informasiya texnologiyaları, siyasi və beynəlxalq münasibətlər bazasında qurulur. Bu səbəbdən də tədris oyunlarında mövzuların mənimsənilməsi məqsədilə bütün baza sahələr üzrə hazırlıq özünə yer tapa bilər. Biliklərin ümumiləşdirilməsi məqsədilə krossvordlardan istifadə də məqsədəuyğundur [20, s. 115].

Emosiyalarla zəngin olan aktiv tədris məşğələləri qeyd etdiyimiz kimi, ənənəvi tədris forma və metodlarını əvəz edə bilməsə də, rasional surətdə tamamlamağa xidmət edir. Fərqli tədris texnikalarının tətbiqi tədris prosesinin qoyduğu məqsəd və vəzifələrə daha effektiv nail olmağa, zəruri səriştələrin formalaşmasına və inkişafına təkan verir. Regionşünaslıq üzrə məzunların hazırlanması prosesində nəzəri və təcrübi məşğələlər arasında sıx əlaqə mütləq izlənməli, tədrisin və peşəkar fəaliyyətin hər bir elementi yekun müsbət nəticəyə hesablanmalıdır.

**Problemin aktuallığı**. Beynəlxalq münasibətlər sistemində Azərbaycan Respublikasının rol və nüfuzunun artması tədbirləri arasında regionşünaslıq ixtisas üzrə məzunların hazırlığına xüsusi diqqət mövzunun aktuallığını əsaslandırır.

**Problemin yeniliyi.** Məqalədə "Regionşünaslıq" ixtisası üzrə müasir əmək bazarının tələblərinə cavab verəcək keyfiyyətli mütəxəssislərin hazırlanması tədris prosesinin əsas məqsədlərindən biri kimi tədqiq edilir, gələcək mütəxəssislərdə peşəkar, eləcə də sosial-şəxsi keyfiyyətlərin formalaşdırılmasının metod və üsulları araşdırılır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə "Regionşünaslıq" ixtisasının bütün fənlər üzrə tədris fəaliyyəti ilə məşğul olan müəllimlər, bu ixtisas üzrə təhsil alan bakalavriatlar və magistantlar, eləcə də elmi tədqiqatçılar üçün faydalı ola bilər.

**Ədəbiyyat:**


1. Darfilal I. The Effectiveness Of Using Language Games In Teaching Vocabulary The Case Of Third Year Middle School Learners. University of Tlemcen. 2014/2015
2. Bekdaş M. Yabancı Dil Öğretiminde Oyunların Konuşma Becerisine Etkisi. TÜBAD Cilt 2, Sayı 1, Aralık, – 2017, – s.17-26
3. Babayeva N. Xarici dil təlimi zamanı tələbələrin şifahi nitq bacarıqlarını kulturoloji aspektdə formalaşdıran amillər. Azərbaycan məktəbi, – 2021. №2, – s.81-88
4. Cəbrayılov İ. Tədqiqatçılıq mədəniyyəti səriştə əsaslı təhsilin yeni məzmununun mühüm komponenti kimi. Azərbaycan məktəbi, – 2021. №1, – s.61-68
5. Guilford, J.P. Three faces of intellect. *American Psychologist, 14*(8), 1959, p. 469-479.
6. Guilford, J.P. Transformation abilities or functions. Journal of Creative Behavior, 17 (2), 1983, p. 75-83
7. Thorpe S, Clifford Jackie. The Coaching Handbook. Kogan Page, 2005
8. Авдевич Н.В. Формирование коммуникативной компетенции на занятиях по иностранному языку как элемент профессионально ориентированного обучения студентов в области зару беж- ного регионоведения // Вестник Московского государственного лингвистического университета. Образование и педагогические науки. 2019. № 3 (832). с. 11-24.
9. Бочагов О.В. Один из инновационных методов оценки компетенций студентов // Инновации в образовании. Москва, ИнВестРЕГИОН. 2010, № 2, с. 63-66.
10. Воевода Е.В. Подготовка современных специалистов-международников: осмысление новой парадигмы. Вестник МГИМО-Университета, 1 (34), 2014
11. Гаврилов С.Д., Редькина, О.Ю. Роль центра общественной дипломатии в научно-методическом и организационно-техническом обеспечении преподавания политической науки и регионоведения (по материалам сайта) // Мир современной науки. 2019. № 4 (56), с. 29–32.
12. Крылова М.Н. Оптимальная организация обучения как условие формирования профессиональных компетенций // Перспективы науки и образования. 2014. № 1, с. 107-111.
13. Куликова Л. Межкультурная коммуникация: теоритические и прикладные аспекты. Красноярск, РИО КГПУ, 2004
14. Культурология. XX век. Энциклопедия. В 2-х томах, СПБ., Университетская книга, 1998
15. Михайленко Т.М. Игровые технологи как вид педагогических технологий. Педагогика: традиции и инновации. -Челябинск: Два комсомольца, – 2011, – с. 145-168.
16. Матюшкин А.М. Проблемные ситуации в мышлении и обучении. – Москва, 1972.
17. Перинская Н.А. Социализация профессиональная. Социология молодежи. Энциклопедический словарь. – Москва: Academia, – 2008
18. Симонов, В.П. Педагогический менеджмент. 50 НОУ-ХАУ в области управления образовательным процессом: учебное пособие. / В.П. Симонов. – Москва: Педагогическое общество России, – 1999.
19. Торкунов А.В. Создание университетов мирового уровня. Вестник МГИМОУниверситета. – 2013. № 2 (29), – с. 9.
20. Улезкина А.В Использование игровых приёмов при работе с картой на уроках географии. Международный научный журнал “Символ науки” № 12-1, – 2021, – с.112-116


**E-mail:** gnamirova@gmail.com

**Rəyçilər:** *ped.elm.dok., prof.* **İ.H. Cəbrayılov,**
*ped.elm.dok., dos.* **P.B. Əliyev**
**Redaksiyaya daxil olub:** 21.12.2023.